

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 114 (23.025)

*21 iyun 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





İyunun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri və "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya gələn xarici ölkələrin nümayəndələri ilə görüşüb.

Ali Məclisin Sədri qonaqları Azərbaycanın müqəddəs torpağı Naxçıvan şəhərində salamlamış, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsində təşəbbüsü olanlara təşəkkür etmişdir. Qeyd olunmuşdur ki, 2009-cu ildən ötən dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və dəstəyi ilə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı işlər uğurla həyata keçirilmişdir. Ötən dövrdə türk-islam mədəniyyəti abidələri bərpa olunmuş, İslam dini və onun dəyərləri ilə bağlı kitablar nəşr olunmuşdur. Həmçinin "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi və suvenirlər hazırlanmış, üzərində loqotip əks olunmuş döş nişanları, zərflər, poçt markaları buraxılmışdır.

Nuh Peyğəmbərin vətəni olan Naxçıvanın qədim tarixindən, burada dini dəyərlərin qorunub yaşadılması sahəsində görülən işlərdən və türk-islam mədəniyyətinin inkişafından danışan Ali Məclisin Sədri Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsinin əhəmiyyətini vurğulamış, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" tədbirlərinin uğurla keçəcəyinə əminliyini bildirmişdir.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmiş, İslam Mədəniyyətinin Paytaxtı seçilmiş şəhərlər və bu layihə üzrə görülən işlər barədə danışmışdır. Baş direktor bildirmişdir ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi düzgün qərar idi. Çünki Azərbaycanın bu qədim diyarında zəngin tarixi-mədəni irs vardır. Eyni zamanda Naxçıvan şəhərinin müasir inkişafı, təmizliyi, havası və İslam dəyərlərinin yaşadılması sahəsində görülən işlər məmnunluq doğurur.






Naxçıvanın malik olduğu zəngin tarixi-mədəni irsin və burada İslam dəyərlərinin yaşadılması sahəsində görülən işlərin təbliğ olunması və tanıdılmasının vacibliyini vurğulayan Əbdüləziz Osman əl-Tuveycri İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının bundan sonra da Naxçıvanla əməkdaşlığa mühüm əhəmiyyət verəcəyini bildirmiş, fikirlərini "Yaşasın Azərbaycan və onun İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan şəhəri, yaşasın İslam Həmrəyliyi" sözləri ilə tamamlamışdır.

Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində İslam ölkələrinin yüksək səviyyəli nümayəndələrlə təmsil olunduğunu və tədbirə böyük marağın olduğunu bildirmişdir.

Əbdüləziz Osman əl-Tuveycri Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən hazırlanmış rəmzi loqonu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova təqdim etmişdir.

Sonda xatirə fotosu çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılışı olub





İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbiri keçirilib.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev, Əlcəzairin mədəniyyət naziri Əzzədin Mihobi, Qvineya Respublikasının mədəniyyət, idman və tarixi-mədəni irs naziri Sanosi Bantama Sou,

*Ardı 2-ci səhifədə*





İndoneziya Respublikasının təhsil və mədəniyyət naziri Muhacir Əfəndi, Tacikistan Respublikasının mədəniyyət naziri Şəmsəddin Şodibek, Özbəkistanın mədəniyyət naziri Bəxtiyar Seyfullayev, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi Düsen Kaseinov, Azərbaycan Milli Elmlər




Akademiyasının prezidenti Akif Əlizadə və digər qonaqlar ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoymuş, ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər.

Daha sonra tədbir iştirakçıları Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxmışlar.

Tədbir başlanmazdan əvvəl teatrın foyesində fotoqraf Hüseyn Bağırovun “Mənim Naxçıvanım” fotosərgisinə baxış olmuşdur.




Naxçıvanın bütün gözəlliklərini, özünəməxsus təbiətini və müasir inkişafını nümayiş etdirən fotolar maraqla qarşılanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Haçadağın fotoşəklini İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycriyə, Batabatın fotoşəklini isə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi Düsen Kaseinova hədiyyə etmişdir.

Sonra tədbir “Qurani-Kərim”in tilavəti ilə başlamışdır.

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan” televiziya filminə baxış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində əlamətdar tarixi günlərin yaşandığını bildirərək tədbir iştirakçılarını salamlamış və demişdir: İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilmiş altıncı konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur.

Ali Məclisin Sədri Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi təşəbbüsünə və dəvəti qəbul edib açılış tədbirində iştiraka görə qonaqlara təşəkkürünü bildirmiş və qeyd etmişdir ki, İslam ölkələri ilə əməkdaşlığa xüsusi diqqət yetirən ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“İslam dini sülh, qardaşlıq və əməkdaşlıq dinidir... Bu, tarix boyu Azərbaycanda öz əməli ifadəsini tapmışdır”.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dini-mənəvi dəyərlərimizin yaşadılmasına xüsusi diqqət yetirir və dünyaya dövlət-din münasibətlərinin tənzimlənməsi modelini təqdim edir. Ölkəmizdə mövcud olan dini dözümlülük və tolerantlıq, multikultural dəyərlər nümunə kimi götürülür.

Belə bir şəraitdə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi barədə qərarın qəbul olunması tarixi hadisədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, ***“Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin maddi-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən yaxın və orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır”.***

Ali Məclisin Sədri demişdir: Beşminillik şəhər mədəniyyətinə malik olan Naxçıvan tarixən təktanrıçılığın mərkəzlərindən biri olub. İslamaqədərki dövrdə burada yaşayan Azərbaycan türkləri dini etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından İslam dininə yaxın idilər. Ona görə də yerli əhali İslam dinini 653-cü ildə könüllü qəbul etmişdir. İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir; mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam təhsilinin, elminin və




mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır. Möminə xatın, Gülüstan, Qarabağlar türbələri, buzxana və hamamlar, qədim məscidlər və digər abidələr bu torpaqda yaradılmış çoxsaylı türk-islam mədəniyyətinin dövrümüzə qədər gəlib çatmış nadir nümunələridir. Bütün bunlar onu göstərir ki, İslam mədəniyyəti güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə inkişaf etmiş, böyük yaradıcı gücə malik olmuşdur. Naxçıvanda türk-islam mədəniyyəti on ikinci əsrdə – Azərbaycan Atabəylər



dövləti zamanında özünün intibah mərhələsinə çatmışdır. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə, Yaxın Şərq və İslam memarlığında yeni bir məktəbin əsasını qoymuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan artıq orta əsrlərdə İslam mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdi. On beşinci əsrdə tərtib edilmiş “Dünyanın İslam tarixi xəritəsi”ndə Naxçıvanın adı qeyd edilmiş və yazılmışdır: “Naxçıvan İslamın ən güclü dayaqlarından biridir... Naxçıvan yaşayış məntəqəsi Allaha yaxınlığı ilə Azərbaycan üçün möcüzədir”. On səkkizinci əsrdə Naxçıvan xanlığı dövründə də bu torpaqda İslam dəyərləri yaşadılmış, tarixi-mədəni irs davam və inkişaf etdirilmişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra isə Naxçıvan Muxtar Respublikasında İslam dəyərlərinə yeni yanaşmanın – elmi baxışın əsası qoyulmuş, türk-islam mədəniyyəti abidələri tədqiq olunmuş, Naxçıvan İslam mədəniyyətinin əsas inkişaf mərkəzi kimi bir daha öz təsdiqini tapmışdır.

Ali Məclisin Sədri bir daha iştiraklarına görə qonaqlara təşəkkürünü bildirmiş, “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” tədbirlərini açıq elan etmişdir.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri çıxış edərək demişdir: Bu möhtəşəm tədbirdə sizinlə olmaqdan böyük məmnuniyyət hissi duyuruq. Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. İlk növbədə, mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımı bildirmək istərdim. O, öz ölkəsinə və eyni zamanda İslam təşəbbüslərinə böyük dəstək verir. Həmçinin səmimi qəlbdən və ürəkdən minnətdarlıq hissi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova da çox sağ ol demək istərdim. Bu cür mükəmməl təşkilatçılıq, təbii ki, danılmazdır.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən həyata keçirilən bu proqram üzv

*Ardı 3-cü səhifədə*






dövlətlərin də birlikdə koordinasiyası çərçivəsində icra edilir və ən önəmli mədəni layihələri, sivilizasiya və bəşəri dəyərlərin İslama bağlılığını nümayiş etdirir. Bu paytaxtların seçilməsi dini fəlsəfə çərçivəsində həyata keçirilir. Burada konkret xüsusi bir ölkə meyarları vardır. Seçilən paytaxt zəngin tarixə sahib olmalı, mədəni baxımdan və eyni zamanda İslam mədəniyyətinə və bəşəri dəyərlərinə, insani dəyərlərə töhfə verməlidir. Bu gün bəşəriyyətin fərdi çağırışlarla üzləşməsinin şahidi oluruq. Ona görə də bəzi mədəni və bəşəriyyətlə bağlı xüsusi proqramlar icra olunur. Bu proqram da tarixi yaddaşı bir növ din vasitəsilə insanlara qaytarmağa çalışır. Yəni keçmişi və hazırkı dövrü bir-birinə bağlamaq cəhdidir. Beləliklə, burada məqsəd cəmiyyətdə xüsusi mexanizmlər vasitəsilə yaradıcılıq, elm və digər sahələrə əlavə töhfə verməkdən ibarətdir. İSESKO ümumdünya sülh, harmoniya, intellektual yaradıcılıq, eyni zamanda elm və araşdırmalar vasitəsilə bu işə töhfə verir. Həyata keçirilən proqramlar fərqli və çeşidli olur. İl ərzində İSESKO tərəfindən qeyd olunan proqramlar çərçivəsində müxtəlif tədbirlər keçiriləcək, ekstremizmə və islamafobiyaya qarşı mübarizə aparılacaqdır.

Mən ilk dəfədir, Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gəlirəm. Naxçıvanı kəşf etdikcə belə bir qənaətə gəlirəm ki, bura cənnətdir. İslam tarixinin bir parçası olan Naxçıvan İslamın olduğu kimi təbliğinə öz töhfəsini verir. Azərbaycanın bu gözəl guşəsində olmağımızdan məmnunluq duyuruq. Buradan bütün dünyaya çatdırmaq istəyirik ki, İslamın terrorizmlə eyniləşdirilməsi qəbuledilməzdir. Fürsətdən istifadə edərək bildiririk ki, bilikli, bacarıqlı və konstruktiv yanaşma vasitəsilə insanlara İslamın gerçək üzünü və gözəlliyini göstərəcəyik.

Açılış tədbirində çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev demişdir: Bu gün tarixi bir hadisənin – Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsinin işığına toplaşmışıq. Naxçıvan bu coğrafiyanın ən müqəddəs torpağıdır və onun mədəniyyəti, tarixi Azərbaycan xalqının qədim sivilizasiyasının beşiklərindən biri olduğunu nümayiş etdirir. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır. Bu torpaqda 1000-dən çox tarixi abidənin mövcud olması və onlardan 60-a yaxın abidənin dünya əhəmiyyətli olması öz-özlüyündə Naxçıvanın qədim tarixinin göstəricisidir.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Gəmiqaya rəsmləri, Naxçıvanqala, Nuh türbəsi, Qarabağlar, Yusif Küseyiroğlu, Möminə xatın türbələri, Əlincəqala və digər abidələrin xüsusi bir özəlliyi ondadır ki, bu tarixi irs nümunələri həm maddi-mənəvi baxımdan, həm də dini inanc baxımından müqəddəs dəyərlərlə bağlıdır. Məhz bu amillər Bakının İslam Mədəniyyətinin Paytaxtı kimi qeyd edildiyi 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasına dair qərar qəbul edilməsini şərtləndirmişdir. Həmin qərar Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Fürsətdən istifadə edərək bu müdrik qərarı verdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, bu təşəbbüsə yüksək dəstəyini göstərən cənab Əbdüləziz Osman əl-Tuveycriyə bütün mədəniyyət ictimaiyyəti adından minnətdarlıq edirəm. Ölkə Prezidentinin qərarı ilə Təşkilat Komitəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sədrliyi ilə Təşkilat Komitəsi tərəfindən mühüm işlər görülmüşdür.

Naxçıvan həm tarixi-mədəni abidələri ilə, həm müasir inkişafı ilə, həm də müdrik və ziyalı insanları ilə tanınır. Lakin bu torpaq Azərbaycan xalqı üçün, böyük İslam dünyası üçün təkcə abidələri ilə deyil, eyni zamanda xalqımızın ümummilli lideri Heydər Əliyevin Vətəni kimi doğmadır və əzizdir.

Təbii ki, İslam mədəniyyətindən və tarixindən danışarkən biz İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının rolunu xüsusi qeyd etməliyik. Azərbaycan Respublikası 1991-ci ildən İSESKO-nun üzvüdür. 1991-ci ildə qurulmuş bu münasibətlər cənab Prezidentin müdrik siyasəti, ölkəmizin 1-ci Vitse-prezidenti, respublikamızın birinci xanımı Mehriban Əliyevanın 2006-cı il 24 noyabr tarixində İSESKO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə uğurlu inkişaf mərhələsinə qədəm qoymuşdur. İSESKO-nun dəstəyi ilə ölkəmizdə son 10 ildə İslam ölkələrinin mədəniyyət, təhsil, ailə və qadın məsələləri üzrə nazirlər konfransları, İSESKO-nun baş konfransı və icraiyyə şurası, həmçinin cənab Prezidentin təşəbbüsü olan Bakı Prosesi və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, İslam Həmrəylik Oyunları keçirilmişdir. Həmçinin son üç ildə ölkəmiz İSESKO-nun baş konfransına sədrlik edir. Bu amillər cənab Prezident tərəfindən 2016-cı ilə Azərbaycan Respublikasının İSESKO üzrə Milli Konfransının yaradılmasına dair xüsusi Sərəncam imzalanmasına, eyni zamanda İslam dünyası ilə dərin və sıx əlaqələrin olması 2017-ci ilin isə "İslam Həmrəylik ili" elan edilməsinə töhfə vermişdir. Bu faktlar bir daha sübut edir ki, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olunmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Həm Naxçıvan, həm də Azərbaycanın digər bölgələrində müsəlman şiə və sünniləri arasında heç bir dini və mədəni ziddiyyət mövcud deyildir və bu birgəyaşama mədəniyyəti dünya üçün bir nümunədir. Naxçıvanda bu sahədə mövcud olan çoxəsrlik tolerant mühit onun islam mədəniyyəti paytaxtları arasında xüsusi yerini müəyyən edir. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova minnətdarlıq edirik.

Sonda Naxçıvan Dövlət Filarmoniyasının konserti olmuşdur.

"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbiri "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in rəsmi internet səhifəsi olan imp.nakhchivan.az saytında, Naxçıvan Dövlət Televiziyasında və "Nuhçıxan" İnformasiya Agentliyinin nuhcixan.az saytında canlı yayımlanmışdır.

* * *

Həmin gün "Araz" Dövlət Qəbul Evində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak üçün Naxçıvana gəlmiş qonaqların şərəfinə rəsmi ziyafət verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirinin iştirakçıları Naxçıvanla tanış olmuşlar





İyunun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya gəlmiş xarici ölkələrin nümayəndələri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olmuşlar.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Tarixin bütün dövrlərində bu qədim diyarda zəngin mədəniyyət və memarlıq nümunələri yaradılmışdır. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. Qala yalnız müdafiə məqsədi daşımamış, eyni zamanda burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilmişdir. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılmış, qalanın əvvəlki görkəmi özünə qaytarılmışdır. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır. Muzeydə eramızdan əvvəl V-VIII minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir.

Nuh Peyğəmbərin məzarüstü türbəsinə baxış zamanı qeyd olunmuşdur ki, türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 28 iyun tarixli "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" Sərəncamına əsasən bərpa edilmişdir. Qonaqlara türbənin tarixi haqqında ətraflı məlumat verilib.

Həmin gün qonaqlar Naxçıvan şəhərində inşa olunan yeni məscid binası ilə də tanış olmuşlar. Məlumat verilmişdir ki, Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlərin qorunub-yaşadılması və təbliği istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika ərazisindəki dini-mədəni abidələr

*Ardı 4-cü səhifədə*





bərpa olunur, yeni məscidlər tikilir, dindarların ibadəti üçün hərtərəfli şərait yaradılır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi bu tədbirlərin əhatə dairəsini xeyli genişləndirmişdir. Məscid binası ibadət zalından, 40 metrlik iki minarədən, qızlar və oğlanlar üçün mədrəsədən və kitabxanadan ibarət olacaqdır. Hazırda məsciddə tikinti işləri aparılır. 15 günbəzli məsciddə eyni vaxtda 5 min nəfər ibadət edə biləcəkdir.

Daha sonra Ali Məclisin Sədri və qonaqlar Naxçıvan Biznes Mərkəzində də olmuşlar. Qonaqlara mərkəzin fəaliyyəti və muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, mərkəzdə muxtar respublikada istehsal olunan müxtəlif növ ərzaq və sənaye məhsulları, əl işləri və rəsm əsərləri sərgilənir. Həmçinin burada müxtəlif tədbirlər, biznes forumlar, işgüzar görüş və konfranslar keçirilir. Sərgi salonunda 94 müəssisənin 192 növdə və 1258 çeşiddə məhsulu, ailə təsərrüfatlarında istehsal olunan məhsullar, ayrı-ayrı sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur.

Naxçıvanla tanışlıq zamanı “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi də ziyarət edilmişdir. Qeyd olunmuşdur ki, Naxçıvanın ən qədim tarixə malik özünəməxsus və təkrarsız abidələri içərisində Əshabi-Kəhf ziyarətgahının xüsusi yeri var. Əshabi-Kəhfdən dünya müsəlmanlarının dini kitabı olan “Qurani-Kərim”in “Əl-kəhf” surəsində ayrıca bəhs olunması bu qədim ziyarətgahın Quranaqədərki dövrdə tanınmasının və məşhurlaşmasının daha bir sübutudur. Ulu öndərin 1998-ci ildə Əshabi-Kəhfin abadlaşdırılması və bərpa edilməsi barədə göstəriş verməsi, xalqımızın dininə və tarixinə göstərilən qayğının bariz nümunəsidir. Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm marşrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır. Bu gün “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilib. Təkcə bu ilin ötən dövründə 20 mindən artıq yerli və xarici qonaq bu möcüzəvi məkanı ziyarət etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbirinin iştirakçıları Duzdağ Fizioterapiya Mərkəzinə gəlmiş, mərkəzin fəaliyyəti ilə tanış olmuşlar.

Bildirilmişdir ki, duz mədənlərinin bazasında yaradılan Duzdağ Fizioterapiya Mərkəzində bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunur. 600 yerlik xəstəxanada temperatur sabitdir. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması isə xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzdə dünyanın bir çox ölkələrindən haliyədə 400-ə yaxın xəstə müalicə olunur.





**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Oruc Qafar oğlu Həsənli



Naxçıvan Müəllimlər İnstitutunun rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Oruc Qafar oğlu Həsənli 2018-ci il iyunun 18-də ömrünün 68-ci ilində vəfat etmişdir.

Oruc Həsənli 1950-ci il avqustun 15-də Şərur rayonunun Ələkli kəndində anadan olmuş, 1967-ci ildə orta məktəbi bitirmiş, 1968-1972-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ali təhsil almışdır.

1972-1979-cu illərdə Şərur rayon Xanlıqlar kənd məktəbində müəllim, 1975-2006-cı illərdə Naxçıvan Dövlət Universitetində assistent, müəllim, baş müəllim və dosent vəzifələrində işləyən Oruc Həsənli 2006-cı ildə Naxçıvan Dövlət Universitetinin professoru olmuşdur. 1993-2008-ci illərdə “Naxçıvan” Universitetinin tədris işləri üzrə prorektoru işləyən Oruc Həsənli 2010-cu ildən Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsində çalışmışdır.

1992-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru, 2006-cı ildə pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi alan Oruc Həsənli 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Oruc Həsənli uzun illər Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda gənc pedaqoji kadrların hazırlanmasında böyük əmək sərf etmişdir.

220-dən artıq elmi əsərin, o cümlədən 26 kitab və monoqrafiyanın müəllifi olan Oruc Həsənlinin əməyi yüksək qiymətləndirilmiş, 2007-ci ildə o, “Tərəqqi” medalı ilə təltif edilmiş, 2014-cü ildə “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Muxtar respublikanın ictimai həyatında yaxından iştirak edən Oruc Həsənli 3-cü, 4-cü və 5-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmişdir.

Ömrünü elmin inkişafına həsr edən gözəl insan, fədakar alim Oruc Həsənlinin xatirəsi unudulmayacaqdır.

**Naxçıvan Muxtar**
**Respublikasının Ali Məclisi**

**Naxçıvan Muxtar**
**Respublikasının Nazirlər Kabineti**

## “Xəmsə” milli intellektual oyunu keçirilib

Dünən Gənclər Mərkəzində Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi və 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar gənc müəllimlər arasında “Xəmsə” milli intellektual oyunu keçirilib.

Oyunun keçirilməsində məqsəd gənc müəllimlərin intellektual səviyyələrinin, dünyagörüşlərinin, zehni inkişaflarının stimullaşdırılması, onların asudə vaxtlarının səmərəli təşkil olunmasıdır. Yarımfinal və final mərhələlərindən ibarət olan oyunda 8 komanda iştirak edib.

Yarımfinal mərhələlərində ən yüksək xal yığaraq birinci və ikinci yerə çıxmış komandalar finala vəsiqə qazanıblar. Belə ki, “Kəngərli”, “Babək”, “Culfa” və Sədərək rayonunun “Əjdəkan” komandaları finalda mübarizə aparıblar. Sonda “Əjdəkan” komandası I, “Culfa” komandası II, “Babək” komandası isə III yerə çıxıblar. Qalib komandalara təşkilatçılar tərəfindən kubok, diplom və fəxri fərmanlar təqdim olunub.

Oyunda muxtar respublikanın



rayon və şəhər tam orta məktəblərində fəaliyyət göstərən 40 nəfər gənc müəllim iştirak edib.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***

### *İtmişdir*

Babək rayonunun Şəkərabad kənd sakini Məmmədov Ələkbər Mikayıl oğlunun adına olan 445 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Atabəylər məhəlləsi, bina 12, mənzil 48-də qeydiyyatda olan Oruczadə Asif Əbili oğlunun adına olan 5541 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Talıbov Murtuz Fərəc oğlunun adına olan 6433 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000,*
*Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir*
*və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 450